# İğdır-Naxçıvan qaz kəməri muxtar respublikanın inkişafına yeni təkan verəcək

Martın 5-də Azərbaycan və Türkiyə prezidentlərinin iki ölkəni birləşdirən növbəti qaz kəmərini istifadəyə verməsi əlamətdar hadisə kimi tarixə düşdü. Azərbaycanın ayrılmaz hissəsi, bir əsrdən artıq müddətdə ölkənin əsas ərazisi ilə quru bağlantısı olmayan Naxçıvanın enerji təminatında əhəmiyyətli rol oynayan İğdır-Naxçıvan qaz kəməri istifadəyə verildi.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) şöbə müdiri Aqil Əsədov AZƏRTAC-a şərhində bildirib ki, bu, sadəcə bir kəmər deyil, həm də "bir millət, iki dövlət" arasında qardaşlığı, dostluğu möhkəmləndirən növbəti bağdır.

"Naxçıvanın enerji müstəqilliyini təmin edəcək İğdır-Naxçıvan qaz kəmərinin tikintisi haqqında razılaşma 2020-ci ilin dekabrında Ankarada imzalanıb, 2023-cü ildə isə kəmərin tikintisinə başlanılıb. İllik ötürmə gücü 730 milyon kubmetr olan kəmər Naxçıvanın qaz tələbatını tamamilə ödəyəcək. Azərbaycan ərazisində 17 kilometr, Türkiyə ərazisində isə 82 kilometrdən çox olan kəmərin uzunluğu təqribən 100 kilometrdir və gündəlik ötürücülük qabiliyyəti 2 milyon kubmetr təşkil edir. Eyni zamanda kiçik modifikasiya işləri ilə kəmərin ötürücülük qabiliyyətinin gələcəkdə daha da artırılaraq 5 milyon kubmetrə çatdırılması mümkündür. Bu xətt Azərbaycan ilə Türkiyə arasında strateji enerji tərəfdaşlığında yeni bir keçid olmaqla üçüncü qaz kəməridir: Bakı-Tbilisi-Ərzurum, TANAP və İğdır-Naxçıvan", - deyə o qeyd edib.

Aqil Əsədov vurğulayıb ki, iki ölkə arasında tarixi dostluğun nümunəsi olan İğdır-Naxçıvan kəməri həm də Türkiyənin bir enerji qovşağına çevrilməsinə töhfə verəcək. O əlavə edib ki, qaz kəmərinin çəkilməsi Naxçıvanın inkişafına yeni impuls verərək muxtar respublikanın iqtisadi və siyasi təhlükəsizliyini təmin etməklə strateji əhəmiyyət daşıyır.

İİTKM-in şöbə müdirinin sözlərinə görə, gələcəkdə kəmərlə əks istiqamətdə də axın mümkündür ki, bu da perspektivdə kəmərin Zəngəzur üzərindən yeni bir reallıq yaradacağı ehtimalını artırır: "İğdır-Naxçıvan kəməri Azərbaycan qazını Türkiyə üzərindən svop mexanizmi ilə Naxçıvana çatdırır. Zəngəzur dəhlizinin açılmasından sonra isə Azərbaycanın əsas hissəsi ilə qədim torpağı olan Naxçıvanı birləşdirəcək nəqliyyat dəhlizlərinə uyğun enerji dəhlizləri də reallaşdırılacaq. Bu zaman İğdır-Naxçıvan kəməri həm də Naxçıvan-İğdır istiqamətində enerji daşıyıcısı kimi Azərbaycan və Türkiyəyə daha böyük dividendlər gətirə bilər".

Aqil Əsədov bildirib ki, bu gün üçün qaz kəmərinin əhəmiyyəti İğdır və Naxçıvanın sosial-iqtisadi inkişafına verilən impulsla xarakterizə olunsa da, gələcəkdə daha strateji mahiyyət kəsb edərək Azərbaycan qazının, eləcə də Azərbaycan üzərindən Türkiyə vasitəsilə Mərkəzi Asiya qaz ehtiyatlarının Avropa bazarına çıxarılmasına öz töhfəsini verəcək və Türk Dövlətləri Təşkilatı üzvləri arasında bağlantını daha da möhkəmləndirəcək.

Azərbaycan.- 2025.- 7 mart (№51).- S.6.